# GÜNCEL AZERBAYCAN ROMANI: GELİŞME EĞİLİMLERİ VE PERSPEKTİFLER (2000'li Yılların Romanları Temel Alınarak)

MÜASİR AZƏRBAYCAN NƏSRİ: İNKİŞAF MEYLLƏRİ VƏ PERSPEKTİVLƏR (2000-Ci İllərin Romanları Əsasında)

CONTEMPORARY AZERBAIJANI PROSE: TRENDS AND PROSPECTS OF DEVELOPMENT (Based On Novels Of The 2000s)

**LALA HASANOVA**
Doç. Dr., Azerbaycan Milli İlimler Akademisi, Nizami Gencevi Edebiyat Enstitüsü
*Assoc. Prof. Dr. Azerbaijan Academy of National Sciences, Nizami Ganjavi Literature Institute*
hltlala@mail.ru
https://orcid.org/0000-0001-9448-1519

Türk Dili ve Edebiyatı Bölümü Dergisi-Journal of Turkish Language and Literature
TÜRKDED-7, Aralık -December 2023 Rize

Makale Türü-*Article Types* : Araştırma Makalesi-Research Article
Geliş Tarihi-*Received Date* : 07.09.2023
Kabul Tarihi-*Accepted Date* : 28.11.2023
Sayfa-*Pages:* 82-95.

**Atıf/Citation:** Hasanova, Lala, (2023). "Güncel Azerbaycan Romanı: Gelişme Eğilimleri ve Perspektifler (2000'li Yılların Romanları Temel Alınarak)" *Recep Tayyip Erdoğan Üniversitesi Fen Edebiyat Fakültesi Türk Dili ve Edebiyatı Dergisi*, 4/2: 82-95.

# GÜNCEL AZERBAYCAN ROMANI: GELİŞME EĞİLİMLERİ VE PERSPEKTİFLER (2000'li Yılların Romanları Temel Alınarak)

*Doç. Dr. Lala HASANOVA**

***Özet***

Günümüz Azerbaycan edebiyatı farklı kuşak yazarların eserleriyle temsil edilmektedir. Her yeni yüzyılın başlangıcı, edebiyatta yoğun arayışlarla birlikte gelir.Bu durum, 20. yüzyılın başında ortaya çıkan edebî qruplar ve farklı yaratıcı yönelimler için parlak bir örnek olaraq, 21. yüzyılın başlangıcı için de tipiktir. Geçmiş on yıl, yeni arayışlar ve yeni yazarlarla akılda kalıcıdır.

Azerbaycan'ın bağımsızlık dönemi edebiyatında dört edebî kuşak belirtilebilir: 60'lar (Anar, Elçin vb.), 70-80'ler (Kamal Abdulla, Zahid Sarıtorpaq, Alabbas vb.), 90'lar (Hamid Herischi, İlqar Fahmi, Parviz vb.) ve 2000'li yılların edebi kuşağı. Son yıllarda edebiyata katılan yazarlar - Ağayar Şerif, Gan Turalı, Vüsal Nur vb. - yeni bir edebî kuşak olarak şekillenmiştir. Bu makalede, Azerbaycan edebiyatında 1990-2000 yıllarında yayımlanan romanlar analiz edilmiş, postmodern edebiyatın özellikleri incelenmiş, hikaye türünün ve tarzının özellikleri tartışılmış ve günümüz Azerbaycan edebiyatının gelişme eğilimleri değerlendirilmiştir. Bu tezler, Gan Turalı, Ağayar Şerif, İlqar Fahmi ve Vüsal Nur gibi yazarların eserleri temel alınarak ortaya konmuştur.

**Anahtar kelimeler:** nesir, savaş teması, büyülü gerçekçilik, Azerbaycan nesri, roman

## MÜASİR AZƏRBAYCAN NƏSRİ: İNKİŞAF MEYLLƏRİ VƏ PERSPEKTİVLƏR (2000-Ci İllərin Romanları Əsasında)

***Xülasə***

Çağdaş Azərbaycan ədəbiyyatı müxtəlif nəslin nümayəndələri olan yazıçıların yaradıcılığı ilə təmsil edilir. Hər yeni əsrin əvvəli ədəbiyyatda intensiv axtarışlarla müşayət olunur. XX əsrin əvvəlində yaranan ədəbi qruplar, fərqli yaradıcılıq meylləri buna əyani bir misaldır. Bu hal XXI əsrin əvvəli üçün də xarakterikdir. Arxada qalan hər bir onillik yeni axtarışlar, yeni müəlliflərlə yadda qalır. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatında dörd ədəbi nəsli fərqləndirmək olar: 60-ci illər (Anar, Elçin və b.), 70-80- cı illər (Kamal Abdulla, Zahid Sarıtorpaq, Əlabbas və b.) 90- cı illər (Həmid Herisçi, İlqar Fəhmi, Pərviz və b.) və 2000 –ci illər ədəbi nəsli. Son illərdə ədəbiyyata gələn yazıçılar- Şərif Ağayar, Qan Turalı, Vüsal Nuru və b. - artıq ədəbi nəsil olaraq formalaşmışlar. Məqalədə 1990- 2000- ci illərdə Azərbaycan ədəbiyyatında yaranan romanlar təhlilə cəlb olunmuş, postmodern nəsr xüsusiyyətləri araşdırılmış, bununla yanaşı nəsrdə yaranan janr-üslub özəlliklərindən bəhs olunmuş, müasir nəsrimizin inkişaf meylləri izlənmişdir. Bu tezislər Qan Turalı, Şərif Ağayar, İlqar Fəhmi, Vüsal Nuru kimi yazıçıların əsərləri əsasında təhlil edilmişdir.

**Açar sözlər:** nəsr, müharibə mövzusu, magik realizm, Azərbaycan nəsri, roman

## CONTEMPORARY AZERBAIJANI PROSE: TRENDS AND PROSPECTS OF DEVELOPMENT (Based On Novels Of The 2000s)

***Abstract***

Contemporary Azerbaijani literature is represented by works of writers from different generations. The beginning of each new century is accompanied by intensive literary searches. A

* Azerbaycan Milli İlimler Akademisi, Nizami Gencevi Edebiyat Enstitüsü, hltlala@mail.ru. 0000-0001-9448-1519

vivid example of this is literary groups and various creative directions that emerged in the early 20th century. Such a situation is typical for the beginning of the 21st century as well. Each past

decade is remembered for new searches and new authors. In the literature of the period of Azerbaijan's independence, four literary generations can be distinguished: the 60s (Anar, Elchin, etc.), the 70s-80s (Kamal Abdulla, Zahid Saritorpag, Alabbas, etc.), the 90s (Hamid Herischi, Ilgar Fahmi, Parviz, etc.), and the literary generation of the 2000s. Writers who have entered literature in recent years - Sharif Agayar, Gan Turaly, Vusal Nuru, etc. - have already formed as a new literary generation. The article analyzes novels published in Azerbaijani literature in the 1990s-2000s, explores the peculiarities of postmodernist literature, discusses genre and stylistic features of prose, and traces the trends in the development of contemporary Azerbaijani literature. These theses were analyzed based on the works of writers such as Gan Turaly, Agayar Sharif, Ilgar Fahmi, and Vusal Nuru.

**Keywords:** prose, theme of war, magical realism, Azerbaijani prose, novel

## Giriş

Kökləri qədim zamanlara dayanan Azərbaycan ədəbiyyatında ilk nasir olaraq Xaqani Şirvani göstərilir. Füzulinin ana dilində yazdığı "Şikayətnamə" və başqa əsərləri də nəsr nümunələrinə *aid edilir.* Sonrakı mərhələlərdə A.Bakıxanov realist hekayənin banisi olaraq qeyd olunur. Bu sırada İsmayıl bəy Qutqaşınlının "Rəşid bəy və Səadət xanım" hekayəsini də qeyd etmək yerinə düşər. "Qeyd olunan bu müəlliflərdən sonra M.F.Axundov ədəbiyyatımıza istər mövzu, istərsə də dil baxımından yeni bir əsər gətirmiş oldu. Bu, 1857-ci ildə qələmə alınan, Azərbaycan ədəbiyyatında ilk povest kimi qiymətləndirilən "Aldanmış kəvakib" povestidir…" (Vahabova, 2014: 6-7). XIX əsrin sonu XX əsrin əvvəllərində (1894–1904*)* "Cəlil Məmmədquluzadə yaradıcılığı başlayarkən qədim və zəngin Azərbaycan ədəbiyyatında bədii nəsr inkişaf etməmiş bir sahə idi... Xalq Mirzə Cəlilin hekayələri ilə bu janrı öz milli ədəbiyyatının faktı olaraq qəbul etdi" (Vahabova, 2014: 6-7). Ölkə ərazisində sovet dövrü qurulandan sonra, bütün sovet ölkələrində olduğu kimi Azərbaycan ədəbiyyatında da "sosialist realizmi" əsas cərəyan olaraq qəbul olundu və ədəbiyyat ciddi nəzarət və yönləndirmə şəraitində inkişaf mərhələsinə qədəm qoydu.

«Milli nəsrin sosializm realizmi konteksti dörd mərhələdə ehtiva olunur: 1920-30- cu illərin ilkin stixik mərhələsindən sonra 1930-1950-ci llərin qəti normativlər dövrü və yeni tarixi şəraitdə -1950- ci illərdən "potensial imkanlar dövrü" gəlir ki, bu mərhələdə metod son sənət imkanlarını da tükədir" (Əlişanoğlu 2006: 293). Milli nəsrin "1960-cı illər - 1970-ci illərin əvvəllərində qazandığı yeni səviyyədən söhbət açan tədqiqatçı milli ədəbi prosesdə "yeni nəsr" adını almış bu hadisəni hərtərəfli araşdıraraq, fəlsəfəsi və poetikasını aşkarlamışdır. "Yeni nəsr" Azərbaycan ədəbiyyatında proses səciyyəli yeni tipoloji hadisədir. Onu yetirən bilavasitə dünya ədəbi-mədəni kontekstində baş verən proseslərdir" (Əlişanoğlu 2006: 294). Bu proses XX əsrin 80- cı illərininin sonlarına qədər davam etdi. 90- cı illərdə isə ədəbi ictimai həyatımızda olduğu kimi, ədəbiyyatımızda da tam yeni səhifə açıldı, müasir ədəbiyyatşünalıqda yeni dövr "Müstəqillik dövrü çoxmetodlu Azərbaycan ədəbiyyatı (1991-ci ildən)" (Müstəqillik dövrü, 2016: 114) olaraq xarakterizə edilir.

XX əsrin 90-cı illəri Azərbaycan ədəbiyyatında roman janrının tənəzzül dövrü olaraq xarakterizə olunur. Həmin illərin əsərlərinə nəzər salsaq sovet hakimiyyəti dövründə uzun müddət qadağa altında olan qərb ədəbiyyatı ilə ilk tanışlıqdan təsirlənən müəlliflərin bu təsirə qapıldıqları, bu səbəbdən bir çox əsərlərdə Kafkanın təsirinin açıq –aydın sezildiyi görünür (Afaq Məsudun romanları (Cəfərov 2016: 47, 140; Əlişanoğlu 2013:59), Pərvizin "Öləngi"əsəri, Natiq Rəsulzadə (Axundova 2011: 202; Rəsulzadə 2013) yaradıcılığındakı absurd əsərlər və başqa əsərlərdə F.Kafkanın təsiri). Həmin dövrdən bəhs edən araşdırmaçılar bu məqama yetərincə toxunmuşlar.

Yazıçıların bu təsiri dəf edərək, öz yaradıcılıq stixiyasını müəyyənləşdirə bilməsi xeyli zaman tələb etdi. Əgər 1990-cı illərdə nəsrdə Azərbaycan dilinə yenicə tərcümə olunmuş Frans Kafka nın təsiri güclü idisə, 2000-cı illərdən başlayaraq postmodern poetika və Umberto Ekonun "Qızılgülün adı" romanının təsiri hakim mövqe qazandı, Azərbaycan nəsrində postmodern roman mərhələsi yarandı (Əlişanoğlu 2011:81). Məhz bu dövrdə, 2000-ci illərdə, roman ən çox müraciət olunan janrlardan birinə çevrildi.

Azərbaycan ədəbiyyatının "dönüş nöqtəsi" olaraq qiymətləndirilən (Talıbzadə 2010: 20) Kamal Abdullanın "Yarımçıq əlyazma" romanından sonra "yeni roman" nəzəriyyələrindən, postmodern poetikadan təsirlənmə daha çox gənc yazıçıların yaradıcılığında yer aldı. Bununla belə, gənc yazarlar ilkin olaraq postmodernizmin formal xüsusiyyətlərindən bəhrələnirdilərsə, bu fəlsəfənin mahiyyətinə tədricən yiyələndilər. Həmid Herisçinin "Nekroloq" (2001), Pərvizin "Öləngi" (2001), İ.Fəhminin "Koroğlu" dastanının motivləri əsasında qələmə aldığı "Çənlibel tülküsü" layihəsinə aid olan üç romanı- "İlk sui-qəsd" (2005), "Qarğa yuvası" (2006), "Kölgədə əqrəb" (2007), "Bakı tarixindən kollaj" (2007), Elxan Qaraqan "A" (2008), Aqşin Yeniseyin "Göləqarğısancan" (2009), Kəramət Böyükçölün "Çöl" (2010), Nərmin Kamalın "Aç mənəm" (2010), Ağayar Şərifin "Haramı" (2011), Sevinc Pərvanə "Şəhər" (2010), və s. əsərlər məhz bu qəbildən romanlar olaraq qiymətləndirilir (Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı 2016 : 239).

Lakin gənclərin axtarışları yalnız postmodern estetika ətrafında cəmləşmir, geniş arsenalı əhatə edir. Müşahidələrimizi konkretləşdirmək üçün "yeni nəsil" yazıçılarımızın yaradıcılığına nəzər salmaq yerinə düşər.

**Şərif Ağayarın romanları**

Şərif Ağayar yeni nəsrin - "2000- cilər" ədəbi nəslinin maraqlı müəlliflərindən biridir. Əsasən, nəsr sahəsində yazıb yaradan müəllif son illlər bir neçə roman qələmə almışdır.

Bir çox müəlliflərdən fərqli olaraq, Şərif Ağayar əsərlərində əsasən qeyri-adi effektli obrazlar və hadisələrdən deyil, yurd-yuvasından didərgin düşən insanların gündəlik qayğılarından, hiss və düşüncələrindən, qarşılaşdıqları çətinliklərdən bəhs edir. Yaradıcılığına nəzər saldıqda, yazıçının bəlli mövzunu- yurd yuvasından köçkün düşən insaların taleyini, canlandırmaqda israrlı olduğu görünür.

Müharibə, didərginlik mövzusuna müasir ədəbiyyatda bir çox müəlliflər müraciət etsələr də, gənclərin yaradıcılığında bu mövzu fərqli anlam kəsb edir. Yaxşı bələd olduğu mövzunu zahiri ştrixlərlə deyil, hadisələrin mahiyyətinə vararaq müəyyən sosial qrupun həyat tərzi olaraq canlandıran müəlliflər, insanların yaşadıqları ağrını mümkün qədər dəqiqliklə ifadə etməyə çalışırlar. Bu əsərlərdə müharibənin özü yox, əks- sədası yer alır. Son illər müharibə mövzusu, əsasən, kiçik yaşlarından bu mühiti anbaan müşahidə edən yazıçılar tərəfindən yazılır. Bu səbəbdən də, əsərlərdə yaşananların dərki müharibə təsvirlərini, döyüş səhnələrini üstələyir. Bu rakurs müharibənin insanlara vurduğu mənəvi psixoloji yaraların, mürəkkəb və ağrılı vəziyyətin mümkün qədər dəqiq və sinxron şəkildə çatdırmaq istəyi ilə bağlıdır.

Bir çox müasir nasirlərimizin yaradıcılığında olduğu kimi, Şərif Ağayarın romanlarında da yeni nəsr texnikasına bələdlik və bu vasitələrdən mümkün qədər bəhrələnmə istəyi güclüdür. Eyni zamanda, xalq təfəkkürünə, psixologiyasına bələdliyi, sözün arxetipik qatları ilə işləyə bilmək bacarığı yazıçı kimi onun müsbət tərəfidir. Yaradıcılığında müxtəlif təsvir üsullarına əl atan müəllif, fərqli yaradıcılıq metodlarından istifadə edir- postmodern ("Haramı") (2011), magik realizm (Ağ göl) (2018), lirik-realist təsvirdə yer alan dekonstruksiya cəhdi- cəhənnəmi xatırladan Gülüstan ("Gülüstan", 2015). Daimi axtarış və sintez yazıçının əsas yaradıcılıq kredosudur. Hər növbəti əsərində yazıçı daha fərqli və yeni bir təsvir formaları axtarışındadır.

Bütün bunlar Ağayar Şərifi yaradıcılığının əsas mövzunu daha dolğun ifadə edəcək bədii forma axtarışında olan müəllif olaraq xarakterizə etməyə imkan verir.

"Kərpickəsən kişinin dastanı" əsəri ilə özünü istedadlı müəllif kimi tanıdan Ağayar Şərif özünü böyük formada sınamağa cəhd edərək "Haramı" romanını (2011) qələmə almışdır. Üç mətndən ibarət əsər (əsas hadisələri əks etdirən mətn, 7 günlük gündəlik və publisistik üslubda 12 əhvalat) ölüm hadisəsi ilə başlanır və əsərdə sona qədər qatilin kimliyi müəyyənləşmir. Haramıda, cəmiyyətin qanunlarının işləmədiyi bir məkanda öz qanunları ilə yaşayan Səməndər əlindəki comağın gücünə ətrafı da öz qanunları ilə hesablaşmağa vadar edir, müasir dünyamıza çomağı, beşaçılan tüfəngi ilə daxil olur.

Əsərin "Günəş gəzib yorulanda" adlı hissəsində tamam başqa bir Səməndərin canlandırıldığı parçalar qəhrəmanlıq təsvirlərindən daha təsirlidir. "...onun bütün qaba görünüşü, tünd xasiyyəti, güzgilərində və təbii ki, daha cox könül dünyasında bəslədiyi o incəliyi, o duyğusallığı qorumaq ücündür. Məhz o incəlik, o duyğusallıq nə qədər coxdursa, Səməndərin zahiri kobudluğu və xasiyyətinin tündlüyü o qədər artıqdır. ...Bütün bunların Səməndərə kifayət qədər əziyyət verdiyini indicə, bu dəqiqə, onun mirvari kimi sinəsinə səpələnən göz yaşlarına baxandan sonra başa düşdüm " (Şərif 2011: 44).

"Səməndər darıxır" başlıqlı hissədə bu mətləblər bir daha vurğulanır. Yenidən onun tənhalığı, dünyaya vaxtından gec gəldiyi, bu səbədən də özünə bab insan tapa bilmədiyi qeyd olunur. "Onun gözündə, ətrafındakı kiçik və zəif insanlar oyuncaq kimi görünürdülər. Oyuncaqların hiyləgərliyini görəndə şir kimi qızışırdı". "Səməndərin üstündən kotan kimi kecib gedən və getdikcə daha çox çirkinliklərə, əclaflıqlara bulaşan zaman ona əzab verirdi" (Şərif 2011 : 45).

O, "... zamanla uyuşa bilmirdi. Zamanla uyuşmazlıq isə böyük komediyalar və ya dəhşətli faciələr yaradır. Səməndər faciələrlə yaşayan biri idi" (Şərif 2011 : 46).

Səməndərin faciəsi müasir dünyamızda mərdlik, kişilik kimi dəyərlrin iflası ilə şərtlənir. "O, əlacsız idi. Bu əlacsızlıq Səməndərin miskinliyindən, fağırlığından deyil, qüdrətindən, yenilməzliyindən doğmuşdu. Səməndər o ürəyi, o vüqarı iyirmi birinci əsrə adlada bilmişdi və ömrü boyu qoruyub-saxlamağa məhkum idi" (Şərif 2011 : 58).

Bununla belə, bu roman da eksperimental səciyyədən (üç mətndən istifadə, qəhrəmana ikibaşlı münasibət, ən mühüm hadisələrin sona qədər şübhə içində buraxılması, mətbuatda gedən məqalə və araşdırmaların eynən, "redaktəsiz" əsərə daxil edilməsi, qaçaq, oğru və çoban obrazlarına fərqli yanaşma və s.) qurtula bilmir. Müəllif maraqlı bir ideyanı yeni roman nəzəriyyələrinə güzəştə getməkdən çəkinmir.

Ağayar Şərifin "Arzulardan sonrakı şəhər" (2017), "Gülüstan" (2017) romanlarında doğma el -obasından didərgin düşən - ilk sevgisinə qovuşa bilməyən, sosial ədalətsizliklər məngənəsinə sıxılan gənclərin taleyi əks olunur. "Gülüstan" əsərində sosial tematika, publisistik təsviri aktuallaşdırırsa, "Arzulardan sonrakı şəhər" (2017) romanında yazıçı bu yanaşmadan uzaqlaşır. Lirik-realist təsvir vasitəsilə gəncin tənhalığı, "müharibədən gələn" səslərin darmadağın etdiyi yaşamın ağırlığı əks olunur. Müharibənin xaraba qoyduğu doğma məkanın simvolu olan çəhrayı rəngli at başının rəsmi, diqqəti ən əsas məsələyə- əldən gedən torpaq mövzusuna yönləndirir. "Mətn içində mətn" strukturundan istifadə müxtəlif dövrlərdə, məkanlarda yaşamasından asılı olmayaraq eyni hissləri yaşayan insanlar arasında bağların yaranmasına xidmət edir.

Romanın konflikti xəyal dünyası və gerçəklik arasındakı uçurumun təsviri üzərində qurulur. Uşaq hər vəchlə arzularına əks olan, qəddar və amansız gerçəklikldən qurtulmağa çalışaraq xəyallarına sığınır. Həsənin yuxuları, özündən fərqli temperamentli insan olaraq

"mənim içimdə üç fərqli insan var..." (Şərif 2017 : 7) deyə bəhs etməsi, ruhlar aləmi ilə bağlılığı personajın mürəkkəb psixoloji dünyasını dəqiqliyi ilə ifadə etməyə vasitə olaraq təsvirin dolğunlaşmasına xidmət edir.

Hadisələr- Həsən doğulmadan öncə yaşanan konflikt, uşaqlığı-məktəb illərinin təsviri, peşə məktəbinə qəbul olunması- gənclik illəri onun özü tərəfindən nəql edilir. Subyektiv təhkiyə, hadisələrin personajın özü tərəfindən nəql edilməsi, həmçinin, təsvirin psixoloji məqamlara köklənməsinə səbəb olur.

Evində məskunlaşdıqları Sərdar müəllimin otağının "mağaraya, div deşiyin"ə bənzədilməsi (nənəsi qətiyyətlə ona həmin otağa girməyi qadağan edir, nağıllarda olduğu kimi məhz qadağalı 40-cı otaqda sirr saxlanılır), nəvənin əzizləyərək "sevimli ifritə", "Miss 154" adlandırdığı nənəsinin küpəgirən qarıya bənzədilməsi, nağıl konstruksiyasından istifadə: "Nənəm sevindiyindən dingildəməyində olsun, gör mənim ağlıma nə gəldi..." oxucunu fərqli məcraya yönəltsə də, nağıl qəhrəmanlarından fərqli olaraq həm Həsən, həm də nənəsi mürəkkəb psixoloji yük daşıyırlar.

Romanda müharibə sxematik şəkildə - mənfur düşmən və müsbət qəhrəman qarşıdurması prizmasından əks olunmur, daha çox ekzistensial, ümumbəşəri mövzularla paralel şəkildə işlənir. Həsənin "yetimçiliyi" müharibə ilə başlamır. Müharibə onu doğma yurdundan didərgin salsa da, öncə nənə və babaları arasında yaşanan konflikt, anası ilə atasının ayrılmasına, ailələrinin dağılmasına səbəb olur. Ailə daxili konflikt, hərkəsin bir-birinə düşmən kəsilməsi ilə qohumlar arasında nifaq yaranır. Qohumların bir çoxu zamanla həyatdan köçsə də ədavətin doğurduğu ağrı bitmir. Köçkünlük isə bu ailədaxili faciəni, nənə və nəvənin həyatını daha da ağırlaşdırır. Qürbətdə qalan qəbirlər kəndən şəhərə, düzənlikdən səhraya köçün yaratdığı nisgilin simvolu olaraq xatırlanır.

Ədəbiyyatın əsas cərəyanlarından olan realizmin XIX əsrdən başlayaraq əsasən iki qolu- F.Dostoyevski, L.Tolstoy, İ.Turgenyev və başqa müəlliflərin yaradıcılığında yer alan psixoloji realizm və Nikolay Qoqolun yaradıcılığında yer alan mistik (magik) qolu formalaşmışdır (Qukovskiy 1989). Müasir nəsrə nəzər saldıqda, ikinci xəttin hakim mövqe tutmaqda olduğu, postmodern yanaşmanın getdikcə realizmin modifikasiyaları ilə əvəzləndiyi görünür. Şərif Ağayarın "Ağ göl" romanını Ə.Haqverdiyev, M.Süleymanlı, Y.Səmədoğlu yaradıcılığında yer alan mistik realist əsərlərə aid etmək olar.

"Ağ göl" romanında hadisələr real və eyni zamanda sirli bir məkanda -Pircahan qəsəbəsində baş verir. "Gözdən uzaq, öz halında, öz havasında Pircahan qəsəbəsi.... Bol-bərəkətli Ağ göl, sadə balıqçı ailələri, yaşamla paralel mamırlı daşların əfsanəsi, qoşa iydələrin qoruyucu güçü.... Övliyaların qoruması altında dünyadan ayrılmış məskən". Realist və mifoloji təsvirin paralel şəkildə yer aldığı əsərdə baş verənlər göldə batan Pirməmmədin ruhu tərəfindən nəql edilir: "Ağ göl Pirməmmədi udub, bədənini gizlədib, ruhunu hadisələrinin içinə yollayıb və o, pircahanlıların aça bilmədiyi sirri astaca pıçıldayır" (Şərif 2018 :12).

Əsərdə ilk olaraq böyük zaman - Ağ babanın göl ətrafında məskunlaşması təsvir olunur. Mamırlı yazıda həmin zamanın, yaranma, ölüm və dirçəliş olaraq daha yığcam formada təkrarlanacağının qeyd olunduğuna inanan, "qızıl dövr"ünü başa vuraraq, kosmosdan xaosa doğru yuvarlandıqlarını dərk edən qəsəbə sakinləri nicat gözləntisindədirlər.

Romanda insanla təbiətin harmoniyasını ifadə edən, övliyalardan miras qalan mifoloji obrazlar mühüm yer tutrur: Ağ göl, böyük və kiçik iydə ağacları, ehsan bulağı, gölün üstünə çökən duman, "sevgi saçan" qaratikan kolları. Camal atanın içindəki "tor hörmək və çəpər çəkmək yanğısı" xüsusi anlam kəsb edir: "səadət deyilən nədirsə, ondan qaratikan çiçəklərinin qoxusu gəlirdi. İnsanlar da arılar kimi cumurdular onun üstünə, içinə. Tapan da olurdu, tapmayan da".

Camal atanın hörümcəyə bənzərliyi vasitəsilə onun yer əhli olmadığını vurğulanır: “O üzün və qıllı əllərini təkbirə açan vaxt əyri ayaqları və balaca bədəniylə hörümcəyə o qədər oxşadı ki, deyirdin, bu saat gözəgörünməz torundan yapışıb sürətlə göyün ənginliklərinə dırmanacaq” (Şərif A., 2018, 82).

Əsərdə yer alan qurban vermə, hörümçək, arı, Ata və oğlun ruhu, İsmayıl haqqında rəvayət, yaşlı vaxtında verilən övlad (İshaq peyğəmbər), xilaskar ( on ikinci imam Mehdi sahib əz-zaman) motivləri mifoloji konteksti aktuallaşdırır. Kənd camaatı Pirməmmədin “cümlə insanlığın xilası” üçün Yaradan tərəfindən qurban olaraq qəbul edildiyinə inanaraq nicat gözləntisində olsa da, onun ölümü qəsəbənin sonunun baçlanğıcı olur. Miflərdə olduğu kimi roman böyük fəlakətlə tamamlanır.

Zənnimizcə, əsərdəki mifoloji- mistik qatın zənginləşməsi, xalq yaradıcılığından daha geniş istifadə, mövzunun dolğun təsvirinə imkan verər, roman strukturunun zənginləşməsinə xidmət edərdi.

Ağayar Şərif son “Komandir” (2020) romanı aprel şəhidi, polkovnik-leytenant Raquf Orucova həsr edilib. Mövzu seçimi, təsvir rakursu uğurlu olsa da (hadisələrin dünən “yaxın” və bü gün “uzaq” müstəvidən təsviri, personajlar tərəfindən nəql edilməsi), fakt və bədii təsvir mütənasibliyinin qorunmaması, personajların təsvirində müşahidə olunan natamamlıq gözdən qaçmır. Müəllif bədii əsər yazmaq istəsə də, bəzən faktların “çılpaqlığı” bədii şərhləndirməni üstələyir. Müahribə mövzusunda yaranan bir çox əsərlərdə nəzər çarpan bu xüsusiyyətin, zamanla aradan qalxacağı arzu ediləndir. Çünki cəmiyyətin həyatında yaşanan bütün kataklizmlər ilk olaraq publisitika, poeziya daha cevik reaksiya verir, nəsr əsərlərinin yaranması daha uzun zaman tələb edir. Çağdaş nəsrimizdə Mustaf Çəmənli (“Fred Asif”, “Mübariz”), Yunus Oğuz (“Ovçu”) və başqa müəlliflər qəhərmanlarımızn obrazlarını yaratmışlar. M.Çəmənlinin “Fred Asif” romanı bədii-sənədli bioqrafiya kimi qələmə alınıbsa, digər müəlliflər bədii əsərlər yaratmışlar. Zənnimizcə, müəlliflər mövzunu janr baxımından necə görmək istədiklərini müəyyənləşdirməkdə (bədii-sənədli və ya bədii əsər) çətinlik çəkirlər. Lakin bu xəttin ədəbiyyatımızda aparıcı mövzuya çevrilməsi arzuolunandır. Çünki 20 yanvar hadisələrindən bu günə qədər davam edən müstəqillik, torpaqlarımızın azadlığı uğrunda çanlarından keçən yüzlərlə qəhrəmanlarımızn obrazlarının nəsrimizdə əks olunması, tarixi yaddaşımızla birgə bədii yaddaşımızda da həkk olunması zəruridir.

Fərqli yaradıcılıq metodlarına müraciəti - postmodern (“Haramı”, 2011), magik realizm (“Ağ göl”, 2018), lirik-realist təsvirdə dekonstruksiya cəhdi- cəhənnəmi xatırladan Gülüstan (“Gülüstan”, 2015), “Arzulardan sonrakı şəhər” (2017) romanı, yazıçını, daim axtarışda olan müəllif olaraq xarakterizə edir. Hər növbəti əsərində fərqli, yeni təsvir formalarına müraciət edən Ağayar Şərif müasir nəsrimizin inkişaf meyllərini müəyyən edən, “yeni ədəbiyyat” yaradan nasirlərimizdəndir.

**Klassik yanaşmadan postmodernə doğru -İlqar Fəhmi**

Şair, yazıçı, ssenarist, kinodramaturq, tərcüməçi İlqar Fəhmi 90-cı illər ədəbi gəncliyinin nümayəndələrindən biridir. Ədəbiyyata yenilikçi axtarışların intensivləşdiyi, klassik ədəbiyyata nihilist münasibətin hökm sürdüyü bir dövrdə gəlməsinə baxmayaraq, ilk bədii təcrübələrini qəzəl janrında qələmə almışdır.

Yaradıcılığa poeziya ilə başlasa da, dünya ədəbiyyatından təbdillər layihəsi çərçivəsində yazdığı hekayələr, postmodernist üslubda yaratdığı tarixi əsərləri İlqar Fəhmini ədəbi mühitdə həm də istedadlı nasir kimi tanıtmışdır.

Müəllifin yaradıcılığını şərti olaraq estetik-modernist və postmodernist əsərlər olaraq qruplaşdırmaq olar. İlk bölgüyə aid olan əsərlərdə bir-birini sevən iki insan arasında yaşanan

mürəkkəb münasibətlər yer alır. Onları həyata bağlayan əsas qüvvə - sənətdir. Müəllifin monotamaşaları yazıçının bir çox əsərlərində hadisələr tamaşa salonunda, teatrda baş verir, səhnə ilə bağlı terminlərdən çox istifadə edilir) xatırladan əksər əsərlərində hadisələr gözəl olduğu qədər çılğın, əxlaqi normalar çərçivəsinə sığmayan qadın obrazları ətrafında cərəyan edir ("Karmen", "Aktrisa", "Akvalanq", "Akvarium" və s.). Lakin qarşı tərəf özünü incidən, əzab verən qadından qurtulmağa can atmır, ovsunlanmış kimi onsuz həyatını təsəvvür etməyərək bu yaşama davam edir.

İlqar Fəhmi "Aktrisa" (2017), "Akvarium" (2017), "Akvalanq" (2018); "Çənlibel tülküsü" trilogiyasına aid olan -"İlk-sui qəsd"(2005), "Qarğa yuvası" (2006), "Kölgədə əqrəb" (2007); həmçinin "Bakı tarixindən kollaj" (roman-mozaika) (2007) romanlarının müəllifidir.

Qəhrəmanları yaradıcı insanlar olan, psixoloji-trilogiya təşkil edən "Aktrisa", "Akvarium", "Akvalanq" əsərlərində hadisələr yaradıcılıq vasitəsilə həyatlarındakı boşluğu tamamlamağa çalışan, yaratdıqları dünyaya qapılmış yaradıcı insanlar ətrafında cəmləşir. Digər obrazlar isə onların "oyunu" ətrafında dekorasiya rolunu oynayırlar. "Əsər içində əsər" strukturundan istifadə olunan romanlarda hadisələr ikili müstəvidə cərəyan edir: real həyatda və obrazın müəllifi olduğu əsərdə. Bu iki aləm arasında kəskin sərhəd deyil, güclü əlaqə mövcuddur. Belə ki, əgər real həyatda hadisələrin üst qatı təsvir edilirsə, baş verənlərin mahiyyəti alt qatda, "əsərlər"də açılır. Hər üç romanda ilk baxışda çox sadə mövzu yer alır: maddi rifahını düşünüb varlı, yaşlı bir insanla ailə qurmuş cavan bir aktrisa, özünə qarşı diqqətsizlikdən sıxılan cavan qadın və həyatdan usanmış yazıçı. Lakin hər üç romanda bu ilk baxışda sadə görünən hadisələrin qeyri-adi müstəvidə inkişafı yer almışdır.

Bu əsərlərin hər birində müəllif, insanın psixoloji dünyasına varmağı bacarır. Müasir ədəbiyyatımızda bir çox müəlliflərin "böyük" mövzulara müraciət edib uğur qazana bilməmələrinə səbəb insanın daxili təlatümlərini göstərməkdə çətinlik çəkmələridir. İlqar Fəhminin yaradıcılığında 90-cılar nəslinə xas mənəvi böhran, idealsızlıq, xəyalları puç olmuş bir nəslin qəlb təlatümləri dəqiqliklə təsvir olunub.

İlqar Fəhminin yaradıcılığında müşahidə olunan ikinci xətt tarixə dekonstruktiv yanaşma, postmodern üslubdur. "Koroğlu" dastanının motivləri əsasında yazılan "Çənlibel tülküsü" layihəsinə aid olan üç roman ədəbiyyatımızda ilk dekonstruktiv əsərlərdəndir. Xalq dastanına fərqli yanaşmanın yer aldığı romanlarda dastan qəhrəmanları əks ampluada təqdim olunsa da, şərqin mühafizəkar ruhu qorunmuş, dekonstruksiya fərqli şəkildə təzahür etmişdir.

"İlk sui-qəsd" əsəri Koroğluya qarşı təşkil edilən qəsdin günahkarlarının axtarışı üzərində qurulub. Ədibin janrını "yarımtarixi roman" olaraq müəyyənləşdirdiyi "Qarğa yuvası" (Çənlibel tülküsü - 2-ci kitab) əsərində də hadisələr detektiv süjet xətti üzrə inkişaf edir. Baş verən cinayətlərin araşdırılması Həmzəyə həvalə edilir. Hər iki romanda xalq qəhrəmanlarının məlum obrazları fərqli şəkildə canlandırılır.

"Qarğa yuvası"romanında Koroğlunun quldur Qara Mahmud qarşısında acizliyi göstərilir, onun ünvanına söylənilən ittihamlar nəticəsində qəhrəmanlığı şübhə altına alınır. "Hər yerindən duran əbləh xalqın, camaatın adını əlində pərçəm kimi tutub öz işini görür. Sən də elə. Sən bu xalqı o səbəbdən belə qoruyursan ki, sənin hüzurunda baş əyənlərin sayı azalmasın... . Elə bizim tək qaçaq-qulduru tutmağa cəhd eləməyin də camaatın qeydinə qalmağın deyil, sən ancaq xalqın gözündən düşməkdən, özünü hörmətdən –qiymətdən salmaqdan qorxursan" (Fəhmi İ., 2018, s.23). Lakin buna baxmayaraq Koroğlu mənfi qəhrəmana çevrilmir. Qəhrəmanı "insaniləşdirməyə" çalışan müəllif, Koroğluya xas müsbət keyfiyyətləri tam şəkildə inkar etmir, min illərlə xalqın yaddaşında canlanın xalq qəhrəmanının obrazının tam deformasiyasından çəkinir, arxetiplərin dağılmasını qarşısına məqsəd kimi qoymur. Koroğlu mifik xüsusiyyətlərini itirsə belə, insani xüsusiyyətlərini itirmir- qadınlara qarşı münasibəti, insanpərvərliyi- kimi

müsbət xüsusiyyətləri saxlanılır. Xalq dastanının dekonstruksiyası üzərində qurulan əsər postmodern təcrübə olaraq maraq doğurur.

Yaradıcılığına xas Şərq kontekstini vurğulayan müəllif, müsahibələrində "müasir Qərb nəsr formalarını götürüb, içini bizim Şərq təfəkkürü" (Fəhmi 2007) ilə işlədiyini qeyd etmişdir.

"Çənlibel tülküsü" layihəsinin üçüncü kitabı olan "Kölgəboğanlar" romanında əvvəlki iki əsərə xas ironik yanaşma, dekonstruksiya şərq poetikası ilə əvəzlənir. Roman ayrı-ayrı hekayətlərə bölünür: Əbülfəz ağanın hekayəti (müəyyən məhzəbə yetişib Allahın salamına etinasızlıq göstərən insanın əhvalatı), bütöv bir şəhəri qan gölünə qərq etmiş Şərq hakiminin qəddarlığı, qırmız rəngin doğurduğu dəhşət və Şeyx Əhmədlə tərsa qızının hekayəti. Şərq nağılları üslubunda nəql edilən hekayətlərdə klassik şeir nümunələri, sufizmdən gəlmə motivlər yer alır, şeyxi məhv edən ehtiras odu, "cismin istəklərinə" ram olan insanın faciəsi canlanır.

Son illərdə qələmə alınmış "*Bakı tarixindən kollaj*" mozaik romanının üslubunu müəyyənləşdirməyə çalışan müəllif yazır: "mənim yazdığım ... real Bakının tarixi deyil, mənim öz içimdə yaratdığım, yalnız mənə məxsus olan Bakının estetikləşdirilmiş tarixidir, ... Belə demək olarsa... mən öz şəhərimi realist üslubda yox, sırf bədii-estetik üslubda yazmışam" (Fəhmi 2007).

Bir qədər ironik üslubda yazılmış əsərdə dünənki və bugünkü Bakı qarşılaşdırılır. Müəllifi qloballaşan dünyanın bir parçası olan, daim sökülən və yeniləşən şəhərimizin tədricən "ağappaq, hamar bir kəfənə çevriləcək..." tarixi, özünə xas xüsusiyyətlərini tədricən itirməsi narahat edir. Gerçəkliklə təxəyyülün sintezinin Bakının tarixi haqqında məlum faktların "şanlı" örtüyündən ayrılaraq, bir növ müəllifin düşüncəsinə uyğun şəkildə təqdim edildiyi əsərdə, tarixi abidələr, insanlar haqqında gerçək məlumatlar (Bakı sözünün etimologiyası, bakılıların mənşəyi, H.Z. Tağıyev, C.Cabbarlı və b. obrazlar) şərh edilir, bədii və publisistik təsvirin növbələşməsi yer alır.

Fərqli üslub, təsvir xüsusiyyətləri ilə seçilən əsər müəllifin modernist və postmodernist axtarışlarının sintezini ehtiva edən eksperimental əsər olaraq maraq doğurur (Həsənova 2019).

**Vüsal Nuru yaradıcılığında janr axtarışları**

Azərbaycan nəsrində qotik janr xüsusiyyətləri nə klassik, nə də müasir nəsrdə geniş yayılmış bir hadisə deyil. Bu baxımdan Vüsal Nurunun "999", "Prezidentin qızı" romanları maraq doğurur.

Janrı qotik ədəbiyyat, mistik triller kimi müəyyən edilən "Prezidentin qızı" romanı, sirli, müəmmalı bir əhvalat əsasında qurulub. Mürəkkəb, şaxələnən süjetə malik əsərdə, müəllif müxtəlif xətləri birləşdirə, bir əhvalat əsasında yönləndirə və inkişaf etdirərək, tədricən çözülən müəmmaların sonda məntiqi yekununa nail ola bilir. Məkanlar, keçidlər sanki bir-birindən doğur, vahid süjet xətti ətrafında birləşir. Dənizdə atılmış estakadada baş verən hadisələr dörd dostun həyatını dəyişərək əsl kabusa çevrir. Romanın süjeti tsiklik xarakter daşıyır: iki reallığın mövcudluğu, mistik dünya ilə konflikt və yenidən reallığa qayıdış baş verir. Konflikt "lənətlənmiş" məkanda, irreallığın müasir həyata müdaxiləsi, qarabasmalar, yuxu motivləri sayəsində gerçəkləşir. Keçmişlə bu gün arasında əlaqə yaradacaq şəkillər təqdim edilir. "Prezidentin qızı" romanında gənclərin zorakılığı əsərin əsas konfliktini təşkil edir. Romanda müasir dünyanın bir çox problemlərinə ötəri, publisistik tonda toxunulur.

"Dorantağ" romanında zamanla eksperimentlər, alternativ tarix konsepsiyası, Əshabı-kəfin tarixini fərqli rakursdan göstərməyə cəhd edən müəllif keşmişi ideallaşdırmır, tarixi fərqli, bir qədər ironik şəkildə təsvir edir. İnsanların mağaraya tapınmasına, mövhumata qarşı olan gənc yazar Əshabi-Kəf haqqında roman yazaraq insanları bu yanaşmadan çəkindirməyə çalışır. Zaman tunelini tapmaq arzusunda olan qəhrəman tunelə daxil olmaqla, əsrləri adlayıb qədim əcdadlarının zamanına dönə bilir. Mürəkkəb və ziddiyyətli, əsrlərin sirrinə bürünmüş bir epoxanın təsviri özü sehr, çoxplanlılıq tələb etsə də, əsərin ideyasının Şərq fəlsəfəsinə əsaslanması daha dolğun ifadə

istəyir. Mövhumatın inkarı fəlsəfi əsaslandırmanı tələb etsə də, müəllif mövzunu fəlsəfi aspektə həll etməyə çalışmır, ideyanın təqdimatı ilə kifayətlənir.

Təhlillərdən gənc yazar Vüsal Nuru fərqli üslublara üz tutan, müxtəlif janrlarda yazmağa üstünlük verən müəlliflərdən olduğu bəlli olur. Qotik (“Prezidentin qızı”, “999”), tarixi-mistik (“Dorantağ”), realist (“Qaraqaşlı”) əsərlərin müəllifinin yeni romanı olan “İlğımda çimən atlar” (2022) antiutopiya janrında qələmə alınıb. Azərbaycan nəsrində geniş yayılmayan, az müraciət olunan janrlardan olan bu ədəbiyyat nümunəsi olaraq Xalq yazıçısı Anarın “Ağ qoç, qara qoç” və Sənan İsmayılovun son illərdə qələmə aldığı “Rədd edilmişlər»,(«Отторжение»), «Üçüncü dairə» «Третий круг») əsərlərini qeyd etmək olar.

“İlğımda çimən atlar” romanında yaddaşın unutdurulması ilə robota (super insana) çevrilən yeni nəslin formalaşması, müəyyən ideyanın əsarətində olan cəmiyyətin faciəsi əks olunur.

Antiutopik əsərlərdə olduğu kimi hadisələr qapalı məkanda baş verir. Janrın tələblərinə uyğun olaraq personajları- sistemin qurbanları, sistemə qarşı etirazını bildirən üsyankar və tiran (dövlətin rəhbərləri) olaraq təsnif etmək olar. Ölkənin tanınmış həkimlərini “qapalı şəhər olan” Miroqrada toplayırlar. Onlar buraya yeni insan yaratmaq, eksperimentlər üzərində çalışmaq üçün gətiriliblər. Yaxşı həyat, iş şəraiti haqqında vədlərə inanıb bura gələn insanlar aldadılqıqlarını bu əraziyə ayaq basdıqları ilk anlardan anlasalar da, bu məkanı tərk etmək mümkün deyil. Burada uzün müddət yaşayan sakinlər isə, yeni gələnlərdən fərqli olaraq zamanla keçmişlərini unudur, yaddaşsız, bir –biri ilə bağlılığı olmayan kütləyə çevrilirlər.

Beləliklə, əsərdə «seçilmiş insanlar», öz qanunları ilə yaşayan “ədalətli” cəmiyyət və başqa utopik konseptlərlə yanaşı, utopik ideyalara inanmayan, qanunlara asi çıxan insanlar kimi antiutopik məqamlar yer alır.

Artıq bəlli zaman keçməsinə baxmayaraq tariximizin “sovet” mərhələsinə tez-tez müraciət edilir. Ömrümüzün mühüm bir mərhələsini birdən-dirə unutmaq mümkün deyil. Keşmişə üz tutub yaşananları yenidən dəyərləndirmək cəhdi cəmiyyətin etdiyi səhvlərdən nəticə cıxarmasına hesablanır. Müxtəlif üslub və janrda yazılmış bədii nümunələrdə həmin zaman kəsiyinə dəfələrlə müraciət olunub: M.Bukqakovun “İt ürəyi”, M. Zamyatinin “Biz”, A.Platonovun “Kotlavan” və b. Milli ədəbiyyatımızda XX əsrin 80- ci illərindən başlayaraq Elçinin “Ölüm hökmü”, Yusif Səmədoğlunun “Qətl günü” kimi əsərləri və başqa nümunələri misal çəkmək olar. Müstəqillik dövrü ədəbiyyatında isə bu mövzu uzun zaman (açıq və ya gizli (dolayı) kontekstdə) aparıcı mövqedə olub- Elçinin absurd-pyesləri, Məqsəd Nurun “Şəhər Meri”və daha onlarla bədii, bədii-sənədli romanlarda ziyalı və sistem qarşıdurması əks olunub.

XX əsr ədəbiyyatında qorxu əsas motivlərdən biri olaraq yer alır. Təhlilə cəlb etdiyimiz əsərdə eyni problem qrotest şəklində əks olunur. “Burada yalnız daxili qanunlar işləyir. Miroqradın Baş katibi Nikita İliç Vissarionoviç yoldaşdır. -Raya rəhbərin adını ayaq üstə deyib, yüngülcə təzim elədi. Əyləşdi. Monitorda Baş katib göründü; orta boylu, dolu bədənli, lopa bığlı kişi əlində tutduğu qara şlyapasını havada yelpik kimi yelləyirdi. Kadr dəyişdi: bir dəstə xoşbəxt təbəssümlü adamın arasında gəzir, onları dinləyir, nəsə deyir, asta addımlarla kütləni arxasınca aparırdı” (Nuru 2022 : 27). Bu qapalı məkanın rəhbərlərinin, mühitinin təsvirində Sovet dövlətinin müxtəlif atributları parodik şəkildə əks olunur. Rəhbər obrazında (Nikita İliç Vissarionoviç) bir necə sovet liderinin xüsusiyyətləri cəmləşib (həm adında, həm zahiri portretində) -xorultulu nəfəsi, “ağzının marçıltısı” (“Adama elə gəlirdi Baş katib iclasda sərxoşdu, o qədər içib, keyimiş dili söz tutmur”), meydanda Leninin heykəli, Sovet psixiatrı Snejnevskinin portreti, yoldaş, zəhmətkeşlər kimi müraciət formaları, “oraq-çəkiç” ordeni (“Döşəmənin ortasında iri beşguşəli ulduz, qızılı rəngdə oraq-çəkic elə canlı, elə dəqiq çəkilib, görən deyir əlimi atsam, çəkicin sapından yapışaram, ayağım ilişsə, oraq kəsər”) (Nuru 2022 : 34), Beriya adına laboratoriya və s.

“Bu şəhərdə hər kəs istədiyini ala bilər. Şəhərimizdə dünyanın ən yaxşı geyim mağazaları var. Əyləncə, istirahət mərkəzi hamı üçündür. Sağlamlığa ziyan olan vərdişlər qadağandır. Xahiş olunur, gəmidə sizə verilmiş sarı üzlü təlim kitabını oxuyasız. Eyni nüsxə telekartınıza elektron şəkildə yüklənib. Hər kəs nizam intizam qaydalarını bilməlidir. Hüquqlarınızı, imkanlarınızı öyrənin. Bəhanələr qəbul olunmur” (Nuru 2022 : 27-28). Beləliklə, əsərdə sərt qanunlar cərcivəsində yaşam, qapalı məkan əks olunur. Zamanla tələb olunanlarla razılaşmayıb etirazını bildirən birinin sistemə qarşı çıxması ilə ideal görünən düzənin ifşası yaşanır. Şəhər yeni sakinlərə ideal məkan kimi təqdim olunsa da, “Miroqrad hökuməti vətəndaşların, qonaqların sağlamlığını öz maraqlarından üstün tutur. – Raya Kozakova dərhal dilləndi. Məncə, bu cavabı dəfələrlə vermişdi. – Əsgərlərin vəzifəsi qonaqları şəhərə hörmətlə, sağ-salamat ötürməkdir. Şəhərə yalnız dezinfeksiya olunmuş adamlar buraxılır. Şəhərdə nəqliyyatın hərəkəti qadağandır. Biz atmosferi çirkli qazlardan, adamları qəzalardan qoruyuruq. Lakin, hamının dayanacaqlarda oturub gözləmək hüququ var. Yerimək həm sağlamlıqdır, həm də qazanc. Siz nizam-intizamla yeridikdə telekartınız addımlarınızı sayar, sizə bonus qazandırar. Bu bonusları alış-verişdə xərcləyə bilərsiz” (Nuru 2022 : 27 -28) yeni gələnlərdə bu yaşam tərzi istehza doğurur. İlk gündən maska taxmağa məcbur edilən insanlar zahiri individuallıqlarını belə itirir, nömrə ilə çağırılırlar. “Raya Kozakova hamıdan maskaları götürməyi xahiş elədi. Dedi ki, bu gündən sonra sizin əsil üzünüz bu maskadır. Süni-intellektli qapılar maskaların rəqəmlərini oxuyanda açılır” (Nuru 2022 : 29). Yeni sakinlərə daim seçilmiş insanlar olduqlarını xatırladırlar: “Onu da dedi ki, dünyəvi dövlətimiz sizi minlərlə həmkarınızın arasından seçib. Bura gələnə qədər küçələrdə adamlarla rastlaşdız. Hər ölkədən seçilmişləri gördüz. Siz də onların arasındasız... . Burda işıqlı bir gələcək qurulur. Bizim sayəmizdə dünya növbəti bir mərhələyə keçir. Parentallar erası başlayır; super insan, super güc. Ağrısız cəmiyyət formalaşır. Bu parentallar bizim laboratoriyalarımızdan çıxırlar. Dünyanın köhnəlmiş idarəetmə sistemini bizim dövlət yenidən qurur. Gələcək üçün bu gün biz birlikdə çalışmalıyıq. Hərə öz elmi bacarığını ortaya qoymalıdır. Gərək elm, bacarıq, təcrübə bir mərkəzdə cəmlənib hədəfə, məqsədə istiqamətlənsin. Dünyanın ağrısını kəsmək üçün burdasız. Xırda-para məişət məsələlərini yoluna qoymaq sizə çətin olmaz. Axı siz sıradan adamlar deyilsiz. Bu sözlərin qarşısında nə deyəsən? Anastasiya Mixaylovna közün üstünə su səpdi. İndi bu otaqda dünya üçün nə qədər vacib adam olduqlarına inandılar” (Nuru 2022 : 59). Şəhər sakinləri (rəhbərliyi çıxmaq şərti ilə) könüllülərə və seçilmişlərə bölünsələr də, bu iki qrup arasında uçurum yoxdur. Birindən digərinə keçmək üçün adi bir qayda pozuntusu yetərlidir. “Sarı Banka borcun olanda... Nizam-intizamı pozanda... Sarı Xətt Nazirliyi cəza verir. Hesabın bitəndə könüllü olursan” (Nuru 2022 : 58).

Beləliklə, romanda böyük ideallara aludə olub, adi insani hisslərə qənim kəsilən antihumanist yaşam, gercəkliyə etinasız olub, illuzor gələcək iddiliyasında olan cəmiyyət əks olunur. Yalan vədlərə uyaraq yeni, daha yaxşı həyat haqqında uydurmalara inanan, vəziyyəti real şəkildə qiymətləndirə bilməyən insanın sonradan bu illuziyaya catmaq üçün ən dəhşətli vasitələrə əl atması labüd reallıq olaraq əks edilir. Öz yaratdığının qurbanına çevrilən cəmiyyət, simasından utanıb başqa “üz” altında yaşamağa üstün tutan insanlar (maskabaşlar) və s. kimi bir çox müasir problemlərin əks olunduğu əsərdə, mifik xətt zəif də olsa sezilir: Xilaskar missiyası, xəyanət, şəhərin meşə (şər qüvvələri təmsil edən məkan) olaraq təqdimi, sonda Aydının ikiləşməsi və s.

XX. əsrin birinci yarısında yaşamış rus filosofu N.Berdyayev utopik ideyaların asanlıqla reallaşması ilə, ziyalıların və mədəni təbəqənin, utopiyalatdan qurtuluş yollarını axtardığını, utopik, “mükəmməl” deyil, daha azad olan cəmiyyətə dönmək istədikləri bir yüzilliyin astanasında olduğunu qeyd edirdi (Berdyayev 2012 : 587-588). Vusal Nurunun antiutopiya janrında yazdığı bu əsər ədəbiyyatımızın bu istiqamətə yönələn axtarışlarının nəticəsi olaraq maraq doğurur.

**Qan Turalı "Fələk qırmancı"**

Qan Turalı əsasən esse, hekayə və pyeslərlə yanaşı, həmçinin, iki roman müəllifidir. Hər iki romanında yazıçı müasir dövrün qəhrəmanını canlandırmağa çalışmışdır. "Mustafa" (2011) romanında bir gəncin həyatı nəql edilirsə, "Fələk qırmancı" (2016) poetika baxımından nisbətən daha mürəkkəbdir. Mətn içində mətn strukturunun yer aldığı əsərdə iki süjet xətti paralel şəkildə inkişaf edir - həyatda öz yerini tapmağa çalışan əyalətdən gələn Zeynəblə "ədəbiyyat oyunundan yorğun düşmüş" yazıçının münasibətləri və sufi olaraq yetişən gəncin hekayəti. Postmodern estetikaya uyğun olaraq- həyatda mütləq həqiqət anlayışı yoxdur, hətta ən müqqəddəs bildiyimiz fikirlər və yanaşmalar belə fərqli çözüm tələb edir- fikrinə əsaslanan yazıçı, hər kəsin məlum həqiqiətlərdən qurtularaq özünün həqiqətə çatmalı olduğu fikrini aşılayır.

Birinci hekayətdə melodrama, ikinci hissədə şeyx mərtəbəsinə qədər yüksələn və sonda nail olduqlarını tərk edərək yaşamağı tərcih edən dərvişin hekayəsi nəql olunur. İkiləşən, parçalanan baxışların (nihilist yazıçı və imanlı Zeynəb; sufilərin inamının şübhəyə alınması), insanın daxilində yaşanan inam və inamsızlığın, ümid və çarəsizliyin, əzəli həyat meyarlarının, axtarışlarının təsvir olunduğu əsərdə əbəbi mövzuların yeni yözümünə cəhd yer alır.

Onların hər üçü- Zeynəb, yazıçı və dərviş azadlıq və harmoniya axtarışındadırlar. "Mən bir əsir idim, azad olmaq istədim. Bu sevmədiyim kənddə nə azadlıq vardı, nə də azad adamlar. İnsanların həyatı bəsit, primitiv və kobud idi" (Qan Turalı 2016 : 3). Özünü real həyatda deyil, sovet dövrünün romantik qızları kimi kitablarda tapan, yazıçını ideallaşdıraraq kumirinə çevirən romantik qızcığaz, Sevil (Cəfər Cabbarlının "Sevil" əsəri) qədər cəsarətli və əzmkardır. Mehdi isə yazıçının digər əsərlərinin qəhrəmanı kimi (hekayələri və "Mustafa" romanı) səbatsız həyat sürən, həyatda özünü tapa bilməyən biridir.

Təəssüf ki, təsvir olunanların gerçəkliklə çox oxşar (hətta surəti) olması, əsərin bədii məziyyətlərinə mənfi təsir edir. Müəllif və personajın bir- birinə yaxınlığı (Mehdinin monoloqlarında səslənən müasir ədəbi mühit, dövr haqqında fikirlər və s.) onun yazıçının ikinci "mən"i (fikirlərinin, baxışlarını ifadəçisi) olaraq qəbul edilməsi, yazarın fikirlərininin ruporu olaraq çıxış edən Mehdi Bəyazidin uğurlu bədii personaj olaraq canlandırılmasına əngəl olur.

Müəllif müxtəlif mətnlər arasında əlaqə qurmağa çalışsa da- bir çox əsərlərə, fikirlərə istinad, muasir mahnıların, filmlərin, filosofun (romanda təkrar-təkrar xatırlanan Vitqenşteyn) xatırlanması, ikinci xətdə Qurandan verilən sitatlar, rəvayətlər əks effekt yaradır. Mehdi Bəyazid yüksək intellektual deyil, daha çox "yarımçıq alim" olaraq yadda qalır. Zeynəbin onun ideallaşdırması da vəziyyəti xilas edə bilmir. İkinci qat fəlsəfi məzmun ehtiva etsə də, təsvir bədii şərhləndirməni üstələyir, dərvişlik həyatının geniş təsvir edilsə də sufi dünyagörüşü, yanaşması yer almır. Oxu prosesində heç bir rəğbət doğurmayan personajların hər ikisi özlərini ətrafdakı insanlardan və situasiyadan üstün hesab etsələr də, miskin və acizdirlər. Yazıçı müxtəlif vasitələr əl ataraq mətnin strukturunu mürəkkəbləşdirməyə çalışsa da (hadisələrin öncə Zeynəb, sonradan Yazıçı tərəfindən nəql edilməsi, bu xəttin dərvişlə bağlı hekayətlə paralel inkişafı) vəziyyəti xilas etmək mümkün olmur. Həmçinin, romanın dil- üslub xüsusiyyətlərinə də diqqət yetirilməlidir. Ard-arda işlənən sadə cümlə kostruksiyaları mütaliə zamanı fikir qırıqlığına səbəb olur.

**Nəticə**

Beləliklə, gənclərin roman janrına müraciəti ilə müstəqillik illəri nəsrində yeni meyllərin, fərqli inkişaf istiqamətlərinin müəyyənləşdiyi bəlli olur. Təhlillərdən göründüyü kimi, yeni romanlar ideya-məzmun paradiqmasının zənginliyi ilə seçilir, axtarışların intensivliyi, çoxsaylı əsərlərin yaranması ilə müşayət olunur. Gənc müəlliflərə xas təsirlənmələrin, yeni roman nəzəriyyələrinə aludəçiliyin aradan qalxması, postmodern estetikanın realist yanaşma (daha çox realizmin modifikasıyaları) ilə əvəzlənməsi, ciddi ədəbiyyatla yanaşı, kütləvi nəsr nümunələrinin

yarandığı görünür. Mənzərənin müxtəlifliyi axtarışların maraqlı nəticələrlə sonuclanacağına ümid verir. Gənclər müasir dövrün problemlərini ədəbiyyata gətirməkdə maraqlıdırlar.

Gənclərin yaradıcılığında, həmçinin müasir Azərbaycan ədəbiyyatının əsas mövzusu olan müharibə mövzusunun fərqli anlam kəsb etdiyi qeyd olunur. Müharibə mövzusunu, müasir insan, şəxs və sosium münasibətlərini fərqli rakursdan canlandırmağa çalışan gənc yazarların, problemlərin dolğun təsvirinə can ataraq müxtəlif meyllər - postmodern, magik realizm, modernizm kimi fərqli istiqamətlərdə yazıb-yaratdıqları aydın olur. Yeni nəsr texnikasına bələdlik və bu vasitələrdən mümkün qədər bəhrələnmə istəyi güclü olsa da, eyni zamanda, xalq təfəkkürünə, psixologiyasına bələdlilikləri, sözün arxetipik qatları ilə işləyə bilmək bacarığı yazıçı kimi onların yaradıcılığının müsbət tərəfi olaraq vurğulanır.

Janr -üslub axtarışlarının intensivliyi Azərbaycan nəsrinin dünya ədəbiyyatı müstəvisində gedən proseslərə qatılmaqda maraqlı olduğunu, dünya ədəbiyyatının bir qolu olaraq inkişaf etməkdə olduğunu bəlli edir.

**Ədəbiyyat**

Axundova, Elmira (2011). Druzey moix prekrasnıe çertı, Baku, CBS.

Berdyayev, N.A (2012). Filosofiya neravenstva, Moskva, İnstitut russkoy sivilizasii.

Cəfərov, Nizami (2016). Afaq Məsud dünyası, Bakı, Elm və təhsil.

Əlişanoğlu, Tehran (2011). Ən yeni romançılığımız "Yarımçıq əlyazmadan sonra", *Tənqid.net,* 8 (1), s. 80-83

Əlişanoğlu, Tehran (2006). XX əsr Azərbaycan nəsrinin poetikası, Bakı, Elm.

Əlişanoğlu, Tehran (2013). Müstəqillik illəri Azərbaycan ədəbiyyatı, Bakı, Qanun.

Ənvəroğlu (Qasımov) (2008). Himalay, Azərbaycan romanının inkişaf problemləri. Bakı, «Nurlan».

Berdyayev, N.A (2012). Filosofiya neravenstva, Moskva, İnstitut russkoy sivilizasii.

Fəhmi, İlqar (2017). Akvalanq (Yüngül bir yay oyunu, yaxud roman dekorasiya), Bakı, Xan.

Fəhmi, İlqar (2017). Akvarium" (Teatral roman), Bakı, Xan.

Fəhmi, İlqar (2017). Aktrisa (iki hissəli psixoloji detektiv), Bakı, Xan.

Fəhmi, İlqar (2016). Bakı tarixindən kollaj Roman-mozaika. *İlqar Fəhmi külliyyatı*, 8 cild, Bakı, Xan.

Fəhmi, İlqar (2019). Qarğa yuvası. *İlqar Fəhmi külliyyatı*, 13 cild, Bakı, Xan.

Həsənova, Lalə (2019). İlqar Fəhminin "Bakı tarixindən kollaj" romanında fakt və təxəyyülün sintezi", *Filologiya və sənətşünaslıq,*2, 97-102

Qan Turalı (2016). Fələk qırmancı, Bakı, Mütərcim.

Qan Turalı (2011). Mustafa, Bakı, Qanun.

Qukovskiy, Q, (1989). Realizm Qoqolya, M.- L, Qolitizdat

Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı (2016)., 2 cilddə, II C. Bakı, Elm və təhsil.

Nuru, Vüsal (2015). Dorantağ, *Azərbaycan,* 9, 9-107

Nuru, Vüsal (2022). İlğımda çimən atlar, *Azərbaycan,* 9, 23-109

Nuru, Vüsal (2014). Prezidentin qızı, Bakı, Zərdabi LTD.

Şərif, Ağayar ( 2018). Ağ göl, Bakı, Qanun.

Şərif, Ağayar (2017). Arzulardan sonrakı şəhər, Bakı, Qanun.

Şərif, Ağayar (2011). Haramı, Bakı, Qanun.

Şərif, Ağayar (2020). Komandir, Bakı, CBC.

Talıbzadə, Aydın (2010). Sehrbazlar dərəsinin ağ dərvişi və ya Kamal Abdullanın 60 yaşı, *Azərbaycan,* 12, 20–22.

Vahabova, Səadət (2014). Cəlil Məmmədquluzadə nəsrinin poetikası. Bakı, Elm.

**Elektron mənbə**

Fəhmi, İlqar (2007), "Mənimçün qəzəl artıq arxa plana keçib"// http://ilqarfehmi.blogspot.com/2007/11/ilqar-fhmi-mnimn-qzl-artq-arxa-plana.html

Rəsulzadə, Natiq (2013), "Mənə Şərqin Kafkası deyirlər". Müsahibə// https://www.kulis.az/news/6995

**Extended Abstract**

Contemporary Azerbaijani literature is represented by works of writers from different generations. The beginning of each new century is accompanied by intensive literary searches. A vivid example of this is literary groups and various creative directions that emerged in the early 20th century. Such a situation is typical for the beginning of the 21st century as well. Each past decade is remembered for new searches and new authors. In the literature of the period of Azerbaijan's independence, four literary generations can be distinguished: the 60s (Anar, Elchin, etc.), the 70s-80s (Kamal Abdulla, Zahid Saritorpag, Alabbas, etc.), the 90s (Hamid Herischi, Ilgar Fahmi, Parviz, etc.), and the literary generation of the 2000s. Writers who have entered literature in recent years - Sharif Agayar, Gan Turaly, Vusal Nuru, etc. - have already formed as a new literary generation. The article analyzes novels published in Azerbaijani literature in the 1990s-2000s, explores the peculiarities of postmodernist literature, discusses genre and stylistic features of prose, and traces the trends in the development of contemporary Azerbaijani literature. These theses were analyzed based on the works of writers such as Gan Turaly, Agayar Sharif, Ilgar Fahmi, and Vusal Nuru.

Thus, it becomes clear that new tendencies and different directions of development were defined in the prose of the years of independence with the appeal of young people to the novel genre. As can be seen from the analysis, new novels are distinguished by the richness of the idea-content paradigm, the intensity of searches, accompanied by the creation of numerous works. It seems that the influence typical of young authors, the addiction to new theories of the novel has disappeared, postmodern aesthetics have been replaced by a realistic approach (mostly modifications of realism), along with serious literature, mass prose examples have appeared. The diversity of the landscape gives hope that the search will end with interesting results. Young people are interested in bringing the problems of modern times to literature.

It is noted that the theme of war, which is the main theme of modern Azerbaijani literature, has a different meaning in the creativity of young people. It is clear that young writers who try to revive the theme of war, modern human, personal and social relations from a different angle, write and create in different directions, such as postmodernism, magical realism, modernism, striving for a complete description of the problems. Although familiarity with new prose techniques and the desire to use these tools as much as possible is strong, at the same time, familiarity with folk thinking and psychology, the ability to work with the archetypal layers of words is emphasized as a positive aspect of their creativity as writers.

The intensity of genre-style searches shows that Azerbaijani prose is interested in participating in the processes at the level of world literature and that it is developing as a branch of world literature.